Mühazirə 4.

Müəssisə təsərrüfat fəaliyyətinin subyekti kimi

Plan:

1. Müəssisə biznes fəaliyyətinin təşkilati forması kimi
2. Müəssisə açıq sistem kimi
3. Hüquqi şəxs anlayışı
4. Müəssisələrin təsnifatı
5. Müəssisələrin birləşməsi
6. Kiçik müəssisələrin növləri.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Ş.Ə.Səmədzadə, V.R.Musayev. İ.Z.Seyfullayev. Sahibkarlığın əsasları. Dərslik. Bakı 2010
2. F.H.Abbasov, R.A.Quliyev. Sahibkarlığın əsasları. Dərslik. Bakı 2012.
3. A.H.Tağıyev, S.A.Fərzəliyev. Biznesin təşkili və idarə edilməsi. Sumqayıt 2007.
4. Qreqori Mənkyu "Ekonomiksin əsasları" Harvard Universiteti. Tərcümə 2010.
5. V.R.Musayev, İ.Z.Seyfullayev "Sahibkarlığın əsasları". Bakı 2000.
6. V.Niftullayev "Sahibkarlığın əsasları". Bakı 2002.
7. В.Ю.Буров. Основы предпринимательской деятельности. Учебное пособие. Чита 2011

1. Müəssisə biznes fəaliyyətinin təşkilati forması kimi

Azərbaycan Respublikasının "Müəssisələr haqqında" qanununda **müəssisəyə** belə tərif verilmişdir: "**Müəssisə** - mülkiyyət formasından asılı olmayaraq bu qanuna muvafiq yaradılan və ictimai tələbatın ödənilməsi və mənfəət alması məqsədi ilə məhsul istehsal edən, satan, işlər gorən və xidmətlər göstərən hüquqi səxs olan müstəqil təsərrüfat subyektidir".

Müəssisələrin əsas əlamətləri aşagıdakılardır:

- ***hüquqi status***. Bu status müəssisənin hüquqi vəzifələrini müəyyən edir və həmin müəssisəyə hüquqi münasibətlərin subyekti kimi baxmağa imkan verir;
- ***müəyyən əlahiddəlik*** (mülki və ya qeyri-mülki);
- ***müəssisənin adı və onun təşkilati-huquqi forması***. Bu əlamət müəssisənin öhdəlikləri üzrə təsisçi məsuliyyət səviyyəsini müəyyən edir.

Beləliklə, müəssisə ayrıca **mülkiyyətə** və hüquqi statusuna malik olan mustəqil təsərrüfat subyektidir.

Biznes fəaliyyətini fərdi müəssisə yaratmaqla yanasi payçi, şərikli və cəmiyyət formalı müəssisələr vasitəsilə də həyata keçirmək olar.

Fərdi müəssisə dedikdə, bir şəxsin tam mulkiyyətində olan müəssisə nəzərdə tutulur. Həmin şəxs sahibkarlıq fəaliyyətinin aparılmasına və onun nəticələrinə görə məsuliyyət daşımalıdır.

Hüquqi şəxs dedikdə, uyğun dövlət orqanlarında qeydiyyatdan keçmiş, özunün nizamnaməsi və bankda hesablasma hesabı olan müəssisə nəzərdə tutulur.

Muzdlu əmək cəlb olunmadan həyata keçirilən sahibkarlıq fəaliyyiti ***fərdi sahibkarlıq*** adlanır.

Muzdlu əmək cəlb olunan sahibkalıq isə ***müəssisə*** kimi qeydiyyatdan keçirilməlidir.

Müəssisənin adı onun asas atributlarından biri olaraq uzun müddətə seçilməlidir. Çünki bu ad müəssisənin alıcılar arasında nüfuzunun daşıyıcısıdır.

Müəssisənin mahiyyətini daha dərindən dərk etmək üçün onun bazar iqtisadiyyatında yerinə yetirdiyi funksiyalarına nəzər salmaq lazımdır:

- ehtiyatların (insan, torpaq və kapital) təmərgüzləşməsi;
- istehsalın təşkili;
- satış fəaliyyəti;
- mənfəətin əldə edilməsi və risk etmək;
- təcrübənin toplanması.

İstehsal etiyatlarının birləşdirilməsi və istifadə edilməsi müəssisənin əsas funksiyalardandır. Bazara rəqabətəqabiliyyətli məhsul təklif edə bilməsi üçün müəssisə lazımi keyfiyyət və dəyər (qiymət) göstəricilərinə malik istehsal ehtiyatlarını əldə etməlidir. Bu çox mürəkkəb və ziddiyyətli bir vəzifədir. Real həyatda müəssisə özünün məhdud maliyyə imkanları ilə yalnız əldə edilməsi mümkün olan mövcud ehtiyatları ala bilər. Müəssisənin keyfiyyətcə bir-birindən fərqli olması da həmin imkanlarla izah olunur. Fəaliyyətə başlamazdan əvvəl sahibkar istehsal ehtiyatlarının seçilməsi və onlardan səmərəli istifadə problemlərini həll etməlidir.

Müəssisənin əsas vəzifəsi məhsul istehsal etməklə, müəyyən işlər yerinə yetirməklə, xidmətlər göstərməklə ictimai tələbatın ödənilməsindən ibarətdir. Bundan əlavə müəssisənin vəzifəsinə müəssisənin əmək kollektivi üzvlərinin qanunvericilik əsasında sosial-iqtisadi maraqlarının müdafiə edilməsi, mənfəət əldə olunması, onun reallaşdırılması, həmçinin büdcə, təsərrüfat partnyorları, mal göndərənlərlə, istehlakçılar, bank və digər təşkilatlarla qarşılıqlı münasibətlər yaradılıması və s. daxildir.

Müəssisə öz fəaliyyətini həyata keçirmək üçün öz əmlakını formalaşdırır və ondan tam təsərrüfat səlahiyyətləri çərçivəsində istifadə edir. Müəssisənin əmlakının formalaşma mənbələrinə aşağıdakılar daxildir:

- müəssisənin təsisçilərinin pul və digər maddi formada vəsait ödənişləri;
- məhsulun reallaşdırılmasından, istehsal və xidmətlərin yerinə yetirilməsindən əldə edilən gəlirlər;
- kapital qoyuluşları və müxtəlif səviyyədə büdcədən ayrılmış dotasiyalar, qiymətli kağızların satışından əldə edilən gəlirlər;
- təmannasız (geri qaytarılmamaq şərti ilə) və xeyriyyə ödənişləri;
- müəssisə, təşkilat və ayrı-ayrı vətəndaşların könüllü ianələri;
- müsabiqə, auksion (hərrac) və tender vasitəsi ilə dövlət müəssəsinin əmlakının alınması; - qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

Müəssisə əmlak mülkiyyətçilərinin, yaxud onun vəkil etdiyi orqaran qərarı ilə yaradıla bilər. Müəssisənin təsisçiləri aşağıdakılar ola bilər:

- dövlət əmlaknı idarə etməyə vəkil edilmiş dövlət orqanları;
- fiziki və hüquqi şəxslər;
- xarici dövlətlər, xarici dövlətlərin vətəndaşları və hüquqi şəxsləri;
- vətəndaşlığı olmayan şəxslər;
- beynəlxalq təşkilatlar.

Müəssisə rəhbəri müəssisə adından etibarnamə olmadan fəaliyyət göstərir, onun mənafelərini bütün müəssisələrdə, idarə və təşkilatlarda təmsil edir, müəssisənin əmlakı barədə sərəncam verir, müqavilələr, o cümlədən əmək müqavilələri bağlayır, banklarda hesablaşma hesabı və digər hesablar açır, vasitələri yönəltmək hüququndan istifadə edir, idarənin aparatının ştatlarını təsdiq edir, müəssisənin bütün işçilərinə şamil edilən əlavə göstərişlər verir.

Müəssisənin fəaliyyətinin tənzimlənməsi aşağıdakı istiqamətdə apanlır. Müəssisə istehsal etdiyi məhsula, gördüyü işlərə, göstərdiyi xidmətlərə tələbatı, habelə istehräl və sosial inkişafin təmin edilməsi, onun işçilərinin şəxsi gəlirlərinin artması zəruriliyini nəzərə alaraq öz fəaliyyətini müstəqil planlar əsasında müəyyən edir. Müəssisənin məhsullarına, işlərinə və xidmətlərinə olan ictimai tələbatm ödənilməsi dövlət tərəfindən iqtisadi üsullarla tənzimlənir. Planlann əsasını istehsal olunan məhsulun, görülən işlərin, göstərilən xidmətlərin istehlakçıları (alıcıları) və maddi-texniki ehtiyatlann tədarükçüləri ilə bağlanmış müqavilələr təşkil edir. Müəssisədə təsərrüfat fəaliyyətinə aid maliyyə nəticələrinin ümumiləşdirilmiş göstəricisi mənfəətdir. Büdcəyə vergiləri və digər ödənişləri verdikdən sonra xalis mənfəət müəssisənin sərəncamma daxil olur. Müəssisənin nizamnaməsində digər qayda nəzərdə tutulmamışdırsa o, xalis mənfəətdən müstəqil istifadə edir. Müəssisə öz məhsulunu, işlərini, xidmətlərini istehsalat tullantılarını müstəqil, yaxkd müqavilə ilə müəyən etdiyi qiymətlər və tariflər üzrə, qanunvericilikdə nəzərdə tutulan hallarda isə dövlət qiymətləri vo tarifləri üzrə satır. Müəssisə dövlət tərəfindən qoyulan qiymətləri vo onlann həddlərini, məhsula, işlərə, xidmətlərə müəyyən edilən tarifləri pozsa, o zaman artıq qazanılan məbləğ dövlət büdcəsinin hesabına keçirməlidir. Bundan əlavə müəssisə qanunvericilikdə müəyyən olunmuş qaydada və məbləğdə cərimə olunur.

2. Müəssisə açıq sistem kimi

Müəssisəyə sistem kimi yanaşma zamanı onun "giriş" və "çıxış" elementləri ilə yanaşı bir çox daxili elementləri də üzə çıxır.

Burada "giriş elementləri" dedikdə, istehsal ehtiyatları, onların keyfiyyət göstəriciləri onların bazarda müəyyən olunan dəyər göstəriciləri nəzərdə tutulur. "Çıxış elementləri" dedikdə isə müəssisənin istehsal etdiyi əmtəə, onun bazarda tələb-təklif mexanizmi vasitəsilə müəyyən olunan qiymət səviyyəsi və gətirdiyi məənfət kimi elementlər nəzərdə tutulur. Göründüyü kimi müəssisənin həm giriş, həm də çıxış elementlərinin əsas göstəriciləri bazarın təsiri altında formalaşır. Lakin istehsal prosesinin təşkili (texnologiyanın seçilməsi, əməyin motivasiyası, keyfiyyətcə nəzarət və i.a) müəssisənin daxili işi hesab olunur.



Müəssisə bazara həlledici təsir göstərə bilmir. Belə ki, uğursuz məhsulu qəbul etməyə bazarı məcbur etmik olmaz. Digər tərəfdən, istehsal ehtiyatlarına bazarda müəyyən olunan qiymət müəssisənin qarşısında duran məsələlərin həlli üçün ilkin verilənlərdir. Sahibkar həmin verilənləri nəzərə alaraq bazarın diktəsinə uyğunlaşmalı və istehsal prosesini təşkil etməklə bazarın obyektiv tələbatlarının həm özü, həm də alıcı üçün səmərəli ödənilməsi üslubunu seçməlidir.

Müəssisənin istehsal etdiyi məhsul alıcıya çatdırılmalıdır. Bazar şəraitində müəssisə bu işi həyata keçirmək üçün öz satış şəbəkəsini yaratmalı və yaxud müxtəlif statuslu əlaqəçilərlə tərəfdaşlıq münasibətləri qurulmalıdır. Bununla yanaşı, müəssisə satışın sürətləndirilməsi üçün bir çox marketinq və reklam üsullarından istifadə etməlidir.

Mənfətin əldə edilməsi müəssisənin əsas məqsədlərindən hesab olunur. Qeyd etmək lazımdır ki, müəssisənin və iqtisadiyyatın inkişafı üçün tələb olunan investisiyaların maliyyə mənbələrindən biri də mənfəətdir. Bazar iqtisadiyyatında bir çox xarici amillərin təsiri nəticəsində müəssisə itkilərə də məruz qala bilər. Hər bir işin tam dəqiqliyi ilə planlaşdırılması mümkün olmayan bazar şəraitində təhlükələr həmişə mövcuddur. Buna görə də belə təhlükələrə hazır olmaq müəssisənin təsərrüfat çevikliyinin əhəmiyyətli şərtlərindəndir. Belə şəraitdə fəaliyyət göstərən müəssisənin strateqiyasının əsas elementlərindən biri də baş verəcək risklərin həcm və xüsusiyyətlərinə görə qiymətləndirilməsidir.

Müəssisələr də canlı orqanizmlər kimi özünü təkmilləşdirən sistemdir. Müəssisənin uğurları və məğlubiyyətləri ciddi təhlil olunmalı, üzə çıxarılan zəif cəhətlər aradan qaldırılmaqla üstün cəhətlərdən tam istifadə edilmə yolları göstərilməlidir. Özünü təkmilləşdirmə qabilliyəti müəssisənin əsas xüsusiyyətlərindən biri olaraq müəssisədaxili mədəniyyətlə bağlıdır. Müəssisənin bütün digər funksiyalarının səmərəli yerinə yetirilməsi məhz təcrübənin toplanması və yaxud özünü təhsilləndirmə vasitəsilə mümkündür.

Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisələr nizamnamə əsasında fəaliyyət göstərirlər. Nizamnamədə aşağıdakılar olmalıdır:

- müəssisənin adı və növü, hüquqi ünvanı;
- təsisçilər barədə məlumat;
- müəssisənin hüquq və vəzifələri;
- nizamnamə fondu;
- fəaliyyətin məzmunu və məqsədi;
- idarəetmə və nəzarət orqanları;
- əmlakın yaranması və mənfəətin (gəlirin) bölüşdürülməsi qaydası;
- yenidən təşkil olunmanın şərtləri;
- müəssisənin fəaliyyətinin dayandırılması və ləğvi məsələləri və b.

Müəssisə istehsal etdiyi məhsula, gördüyü işlərə, göstərdiyi xidmətlərə tələbatı, habelə istehsalat və sosial inkişafın təmin edilməsi zərurətini nəzərə alaraq öz fəaliyyətini müstəqil planlaşdırır və inkişaf perspektivini müəyyən edir.

3. Hüquqi şəxs anlayışı

Sahibkarın statusu özündə onun hüquqlarının həcmini, öhdəlik sərhədlərini və məsuliyyət səviyyəsini cəmləşdirir. Sahibkarlıq statusu sahibkarın öz fəaliyyətini dövlət qeydiyyatından keçdikdən sonara əldə edilir. Sahibkarlıq statusunun 2 forması var:

- xüsusi sahibkarlıq;
- hüquqi şəxs.

Hüquqi baxımdan xüsusi sahibkarlığın 2 növü var: gizli və aşkar.

Sahibkarlığın gizli forması aşağıdakı hallarda mövcud olur:

1. dövlət qeydiyyatından keçməyə şüurlu şəkildə getmədən həyata keçirilən sahibkarlıq fəaliyyəti (səbəbləri: vergiləri ödəməmək istəyi, məhsulun dövlət standartlarına uyğun olmaması, icazə olmadan tanınmış markadan istifadə və i.a)

2. küçə ticarətinin təşkili zamanı (pərakəndə ticarət vasitəçilik, alver və s.)

3. razılaşdırılmış fəaliyyət (icraçı tərəfindən sifarişçi üçün müəyyən ödəmələr şərtləri ilə dövlət qeydiyyatından kənarda qalan işlərin həyata keçirilməsi.)

Sahibkarliğin aşkar formasında sahibkar 2 formada iştirak edə bilər:

- hüquqi şəxs formasında
- fiziki şəxs formasında

Hüquqi şəxsin əlamətləri aşağıdakılardır:

1) iqtisadi öhdəliklərin daşıyıcısı olmaq;

2) iqtisadi məhkəmədə iddiaçı və ya cavabdeh rolunda iştirak etmək hüququna malik olmaq;

3) özünün xüsusi balansına malik olmaq;

4) vahid dövlət reyestrində qeydiyyata alınmaq və bankda hesaba malik olmaq;

5) öz adından mülki, şəxsi və ya qeyri-mülki hüquqların əldə edilməsi və həyata keçirilməsi imkanına malik olmaq;

6) sahibkarın öhdəliklərinə və məqsədlərinə uyğun olaraq vətəndaşlıq hüququndan istifadə etmək;

7) üzərinə götürdüyü öhdəliklərə görə öz mülkiyyətində olan əmlakla cavabdehlik daşımaq;

8) özünün əlahiddə mülkiyyətinə malik olmaq:

- mülkiyyətin tam hüquqlu sahibi kimi;
- təsərrüfat fəaliyyətini həyata keçirmək üçün öhdəsinə götürdüyü mülkiyyətə;
- idarə edilmək üçün qəbul olunmuş mülkiyyətə.

Hüquqi şəxs özünün ayrı-ayrı struktur bölmələrini yaratmaq hüququna malikdir. Bu bölmələr aşağıdakılardır:

1) nümayəndəlik
2) filial
3) şöbə

Hüquqi şəxsin nümayəndəlikləri, filiallari və şöbələri onun nizamanaməsində göstərilməlidir. Nümayəndəlik hüquqi şəxsin struktur bölməsi olaraq onun yerləşdiyi ərazidən kənarda olmalı və ona hüquqi şəxs tərəfindən həvalə olunan funksiyaları yerinə yetirilməlidir. Bu funksiyalara aşağıdakılar aid ola bilər:

1) hüquqi şəxsin öz istehlakçıları ilə münasibətlərinin yaxşılaşdırılması;
2) hüquqi şəxsin konkret regionda maraqlarının müdafiəsi.

Nümayəndəlik hüquqi şəxsdən müəyyən mülkiyyət alır, lakin öz hüquqi şəxs statusuna malik olmur.

Filial və ya şöbələr hüquqi şəxsin ayrı-ayrı struktur bölməsi olmaqla onun yerləşdiyi ərazidən kənarda olan regionda hüquqi şəxsin bütün funksiyalarını həyata keçirmək hüququna malik olurlar və ya həmin regionda hüquqi şəxsin maraqlarını təmsil edə bilərlər. Filial şöbələrə nisbətən daha çox hüquqa malik struktur bölməsidir.

Göstərilən fəaliyyətlərin həyata keçirilməsi zamanı hüquqi şəxs öz nizamnaməsində müəyyən dəyişmələri həyata keçirə bilər:

- hüquqi şəxsin dəyişdirilməsi;
- hüquqi şəxsin ləğv edeilməsi

Hüquqi şəxsin dəyişilməsi aşağıdakı hallarda baş verir:

1) başqa hüquqi şəxslərlə birləşdikdə;

2) təsisçilərin tərkibi dəyişdikdə;

3) öz mülkiyyətindən pay verərək başqa hüquqi şəxs yaradıldıqda;

4) hüquqi şəxsin bir neçə hüquqi şəxsə bölünməsi zamanı.

Hüquqi şəxsin ləğvi onun iflasa uğraması (müəssisə kreditorlar qarşısında öhdəliklərini yerinə yetirə bilmədikdə)ilə bağlıdır.

4. Müəssisələrin təsnifatı

Məlumdur ki, təşkilatlar kommersiya və qeyri-kommersiya təşkilatlarına bölünürlər. Kommersiya təşkilatlarına fəaliyyət məqsədi mənfəət əldə etmək olan təşkilatlar aid edilir. Qeyri- kommersiya təşkilatlarına isə fəliyyət məqsədləri mənfəət olmayan təşkilatlar aid edilir. Belə təşkilatlara xeyriyyə fondlarını, ictimai birlikləri, dini təşkilatları və başqalarını aid etmək olar.

Kommersiya təşkilatlarına aid olan müəssisələr fəaliyyət xarakterinə, məqsədlərinə, şəraitlərinə və bir çox digər əlamətlərinə görə fərqlənirlər. Adətən müəssisələri təsərrüfat fəaliyyətinin xarakteri və növünə, mülkiyyət formasına, kapital mənsubiyyətinə və üzərindəki nəzarətə, hüquqi statusuna və digər əlamətlərə görə təsnifləşdirirlər. Cədvəl 4.1-də müəssisələrin təsnifat əlamətləri və ümumi xarakteristikaları göstərilmişdir. Onlardan bir neçəsi üzərində ətraflı dayanaq.

Müəssisələr sanaye,kənd təsərrufatı, kredit-maliyyə, tikinti, və nəqliyyat və başqa sahələrdə fəaliyyat göstərirlər.Həmin müəssisələr tələbatın ödənilməsi prosesinin (istehsal bölüşdürmə -mübadilə -istehlak) ayrı-ayrı mərhələlərinin əsas və ya köməkçi elementləri üzrə ixtisaslaşmış ola bilərlər.Məsələn ,ticarət müəssisələri "mübadilə" prosesinin həyata keçirilməsini təşkil edirlər.Bu müəssisələr həm müstəqil fəaliyyət göstərə bilərlər,həm də iri istehsal müəssisəsinin satış sisteminə daxil ola bilərlər.

Müəssisələr istehsal etdikləri əmtəələrin təyinatına və xarakterinə görə siniflərə bölünə bilərlər. Nümunə üçün, maşınqayırma, yüngül sənaye, metallurgiya və i.a.

Müəssisələr sərmayə münasibətlərinə görə milli, xarici və birgə müəssisələrə bölünürlər.

Milli müəssisələrə nizamnamə fondu yerli sahibkarların sərmayələri hesabına formalaşan müəssisələr aid edilir. Müəssisənin milliliyi həmçinin onun yerləşdiyi və qeydiyyatdan keçdiyi məkan ilə müəyyən olunur. ABŞ-ın, Yaponiyanın, Cənubi Koreyanın müəssisələrinin filialları və bölmələri bir çox olkələrdə fəaliyyət göstərmələrinə baxmayaraq, öz ölkələrinin milli müəssisələri hesab olunurlar.

Müəssisələrin təsnifat əlamətləri və xarakteriskaları.

	Əlamətlər	**Müəssisənin xarakteristikası**
	Əsas fəaliyyət sahəsi	-sənaye - tikinti

		-nəqliyyat -rabitə -maliyyə-kredit -ticarət və b.
	Mülkiyyət forması	-xüsusi -dövlət -kooperativ
	Olçülər (işçilərin sayı, satış həcmi, Mənfəətin məbləği və i.a.)	-iri -orta -kiçik
	Nizamnamə fondunda xarici xarici investisiyaların iştirakı (sərmayə mənsubiyyətinə)	-xarici -birgə -milli
	Hüquqi -təşkilati forma	-fərdi müəssisə -məhdud məsuliyyətli müəssisə -səhmdar cəmiyyətləri(açıq və qapalı) -payçı və şərikli (komandit ortalıqlar)
	Birləşmə qaydaları	-Korporasiya -trest -kartel - konsorsium -assosiasiya və i.a
	Hazır məhsulun təyinatı	-istehsal vasitələri müəssisəsi -istehlak predmetləri müəssisəsi
	İstehsal prosesinin təşkili metodları	-- axınlı istehsal --dəstlərlə (seriyalı) istehsal --fərdi istehsal
	Tələb olunan xammalın xüsusiy.	-hasilat sənayesi; emal sənayesi

Xarici müəssisələrə nizamnamə fondu tamamilə xarici sahibkarların sərmayələri hesabına formalaşan müəssisələr aid edilir. Səhmlərinin nəzarət paketi xarici sahibkarlara məxsus olan müəssisələr də xarici müəssisələrə aid edilir. Xarici müəssisələrin təşkili və fəaliyyəti, qeydiyyat qaydaları, hüququ statusları, vergitutma qaydaları və başqa məhdudiyyətlər yerləşdikləri ölkənin qanunvericilik aktları ilə müəyyənləşdirilir.

Birgə müəssisələrə nizamnamə fondu iki və ya daha çox (biri yerli sahibkar olmalıdır) ölkəni təmsil edən sahibkarların sərmayələri hesabına formalaşan

müəssisələr aid edilir. Birgə müəssisələrin yaradılması zamanı yerli sahibkarlar aşağıda göstərilən ardıcıllıqla fəaliyyət göstərə bilər.

1) birgə müəssisələrin profilinin müəyyən edilməsi;

2) birgə müəssisənin yaradılmasında maraqlı olan xarici tərəfdaşın axtarılması;

3) niyyət protokolunun imzalanması;

4) xarici tərəfdaşın birgə müəssisənin mənfəətindən öz payını almasının mümkün variantların hazırlanması;

5) birgə müəssisənin təsisi zamanı qoyulacaq payların ilkin qiymətləndirilməsi;

6) birgə müəssisənin təsisçi kimi iştirak etmək hüququnun əldə edilməsi;

7) birgə müəssisənin təsisi və qeydiyyatı üçün tələb olunan sənədlərin, layihələrin hazırlanması;

8) birgə müəssisənin yaradılması haqqında müqavilənin imzalanması;

9) birgə müəssisənin dövlət qeydiyyatı;

10)birgə müəssisənin yaradılması üzrə qərarların həyata keçirilməsi.

Xarici və birgə müəssisələrin ölkəmizdə fəaliyyəti Azərbaycan Respublikasının "Xarici investisiyaların qorunması haqqında" qanunu ilə (15 yanvar1992-ci il, dəyişiliklər edilib 07 aprel 1992 ci ildə) tənzimlənir.

Bu qanuna görə birgə müəssisələrin yaradılmasında tərəfdaş kimi aşağıda göstərilən subyektlər iştirak edə bilərlər:

-yerli hüquqi şəxslər

-xarici hüquqi şəxslər

-xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və xaricdə daima yaşayış yeri olan Azərbaycan Respublikası vətəndaşları, bu şərtlə ki, onlar vətəndaşı olduqları və ya daima yaşadıqları ölkədə təsərrüfatı fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış olsunlar.

- xarici dövlətlər

-beynəlxalq təşkilatlar

5. Müəssisələrin birləşməsi

Birləşmə hər bir sahibkarın fəaliyyətinin səmərəliliyinin yüksədilməsinə imkan verdikdə sahibkarlar ümumi səylərin birləşdirilməsinə həvəslə gedirlər.

Kommersiya təşkilatları qapalı və açıq ittifaqlar və ya assosiasiyalar yaratmaq hüququna malikdirlər. Lakin assosiasiya özü kommersiya müəssisəsi ola bilməz, yəni ki, assosiasiya müəssisələrin məqsədi mənfəət olmayan birləşmə formasıdır. Müəssisələrin daha yüksək mənfəət əldə etmək məqsədi ilə getdikləri birləşmə formalarına aşağıdakıları aid etmək olar:

- kartel
- konsorsium;
- konsern;
- trest;
- sindikat;
- holdinq;
- maliyyə-sənaye qrupları;
- korporasiya.

Kartel bir qayda olaraq eyni sahəni təmsil edən müəssisələrin birləşməsidir. Özlərinin istehsal və kommersiya müstəqilliklərini itirməyən və öz fəaliyyətlərinin yalnız bir hissəsini kartel müqaviləsi əsasında quran müəssisələr aşağıdakı şərtlər üzrə razılığa gəlirlər:

1) istehsal həcmi üzrə;
2) satış bazarları üzrə;
3) satış şərtləri üzrə.

Konsorsium bir neçə bank və ya sənaye müəssisələri arasında sərmayə qoyuluşu geniş miqyaslı maliyyə və kommersiya əməliyyatlarının həyata keçirilməsi və ya iri miqyaslı sənaye tikintisi üçün müvəqqəti razılaşma formasıdır.

Konsern patent lisenziya razılaşmaları maliyyələşdirmə sıx istehsal əməkdaşlığı və iştirak sistemi vasitəsi ilə bağlı olan müstəqil müəssisələrin birləşməsidir.

Trest müəssisələrin elə birləşməsidr ki, burada müəssisələr özlərinin hüquqi və təsərrüfat müstəqillyini itirərək vahid istehsal kompleksnə daxil olurlar.

Sindiqat karter razılaşmasının bir formasıdır. Sindiqatın iştirakçıları özlərinin hüquqi və təsərrüfat müstəqilliklərini saxlayırlar.

Holdinq şirkətləri sadə səhmdar cəmiyyətlərinə nisbətən daha mürəkkəb təşkilati struktura malik olan səhmdar cəmiyyəti formalı müəssələrdir.

Koorporasiyanın gəlirinə hüquqi şəxs kimi vergi qoyulur. Korparasiyanın sahibləri korparasiyanın borcları üzrə məhdud məsuliyyət daşıyırlar.

6. Kiçik müəssisələrin növləri.

Fəaliyyət növlərindən, müəssisələrin bazara çıxması imkanlanndan və hərəkət strategiyasından asılı olaraq Qərb ölkələrinin iqtisadiyyatında kiçik müəssisələrin aşağıdakı növləri fərqləndirilir:

- kommutant tipli kiçik müəssisələr;
- patient tipli kiçik müəssisələr;
- eksplerent tipli kiçik müəssisələr

Kommutant tipli kiçik müəssisələr. Bu qrupdan olan kiçik müəssiseler bir qayda olaraq son məhsulun ayn-ayrı detallarının hazırlanması üzrə ixtisaslaşıb, aralıq istehsalı heyata keçirirlər.

Patient tipli kiçik müəssisələr. Bu qrupdan olan kiçik müəssisələr yerli xammal və material mənbələrinə əsaslanmaqla və məhdud tələb baxımından lokal satış bazarlarına xidmət etməklə son məhsulların buraxılışı üzrə ixtisaslaşırlar.

Eksplerent tipli kiçik müəssisələr. Bu qrupdan olan müəssisələri bir çox hallarda riskli firmalar və ya innovasiya müəssisələri də adlandınrlar. Bu cür müəssisələr əsas etibarilə elmi və konstruktor xidmətləri həyata keçirirlər. Kiçik müəssisələr bir və ya bir neçə fəaliyyət növü üzrə ixtisaslaşmaqla xalq təsərrüfatının bütün sahə və sferalarında fəaliyyət göstərirlər. Qeyd etmək lazımdır ki, xüsusi fəaliyyət növlərinin həyata keçirilməsinə müstəsna hallarda dövlət müəssisələrinə icazə verilir. Müəyyən qrup məhsul istehsalı isə adətən xüsusi icazə (lisenziya) əsasında həyata keçirilir. Kiçik müəssisələr öz təsərrüfat fəaliyyətlərinin həyata keçirilməsində tam sərbəstliyə malikdirlər. Belə ki, onlar istehsal etdikləri məhsula müstəqil sərəncam vermək

hüququna malik olub, mənfəətin vergilər və digər məcburi ödənişlər çıxıldıqdan sonra qalan hissəsindən sərbəst şəkildə istifadə edə bilərlər. Bütün növ müəssisələrin maliyyə nəticələrinin ümumiləşdirici göstəricisi mənfəət hesab edilir. Müəssisənin təsərrüfat fəaliyyətində ən mühüm proses planlaşdırma hesab edilir. Kiçik müəssisələr öz fəaliyyətlərini sərbəst planlaşdılırmaqla istehsal olunan məhsullara və göstəriləcək xidmətlərə olan tələb baxımından inkişaf perspektivlərini, müəssisənin iqtisadi və sosial inkişafının təmin edilməsinin və işçilərin şəxsi gəlirlərinin artırılmasının zəruri səviyyəsini müəyyən edirlər. Planlar əsasında müqavilələr tərtib edilməklə müstəqil olaraq məhsul, əmtəə və xidmətlərin istehlakçıları (alıcıları), həmçinin məhsul istehsalı üçün zəruri olan material və mal göndərənlərlə müstəqil olaraq imzalanır.

Müəssisədə işləyənlərin əmək haqqının həcmi, forma və sistemləri, həmçinin onların gəlirlərinin digər növləri kiçik müəssisələr tərəfindən müstəqil şəkildə müəyyənləşdirilir. Müəssisə əmək haqqının minimum həcmindən və eyni zamanda orta əmək haqqı səviyyəsindən az olmamaqla əmək haqqı və əmək şəraiti, həmçinin müəssisənin təşkilati-hüquqi formalarından və mülkiyyət növlərindən asılı olmayaraq işçilərin sosial müdafiəsi ilə bağlı tədbirləri həyata keçirir.

Kiçik müəssisələrin işçiləri, sosial və tibbi sığortaya cəlb edilir və dövlət müəssisələrinin işçiləri üçün nəzərdə tutulan bütün növ sosial təminat hüququna malikdirlər. Bu baxımdan kiçik müəssisələr sosial və tibbi sığorta haqları ödəyir.